Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 41-42 (7562-7563) ✲ 1933-cü ildən nəşr olunur ✲ Cümə axşamı, 12 sentyabr 2019-cu il. news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***9 sentyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalamışdır.

***6 sentyabr***

Dövlətimizin başçısı Prezidenti İlham Əliyev türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib. Prezident Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu bildirib. İclasın ikitərəfli və çoxtərəfli əməkdaşlığımızla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev ölkələrimiz arasında etimada əsaslanan çox sıx qardaşlıq münasibətlərinin mövcud olduğunu bildirib.

***5 sentyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BP-nin Direktorlar Şurasının sədri Helqe Lundun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan ilə BP arasında uzun illər ərzində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub, neft və qaz sənayesinin inkişafının Azərbaycan iqtisadiyyatının şaxələndirilməsindəki rolu vurğulanıb, Bakıda və regionlarda böyük infrastruktur layihələrinin reallaşdırıldığının önəmi qeyd edilib.

* * *

Ölkə Prezidenti İlham Əliyev Bakıda "Şimal-2" elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib.

***4 sentyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rövşən Raqif oğlu Məmmədovun "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***3 sentyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edilib, iki ölkənin dövlət başçıları arasında səmimi münasibətlərin əlaqələrimizin inkişafındakı rolu vurğulanıb.

**İlham ƏLİYEV:** ***Bu gün dünyada savad, bilik texnologiyalar hər şeyi həll edir. Ölkələri inkişafa doğru aparan əsas amillər savad, bilik, texnologiyalar, innovasiyalar, yeniliklərdir.***

# Təhsil cəmiyyətin hərtərəfli inkişafında həlledici faktordur



Ölkəmizdə əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu təhsil islahatları bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"-nın qəbulundan ötən müddət ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamika daha da sürətlənib, bir sıra əsaslı nailiyyətlər əldə olunub. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən dövlət proqramları və islahatlar çərçivəsində təhsilin bütün sahələri inkişaf edir. Bu proqramlar orta məktəblərdə kurikulum, təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsili, Azərbaycan ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası və sair məsələləri əhatə edir.

Ölkədə təhsilə qayğı, xüsusilə, onun maddi texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılır. Bu bir həqiqətdir ki, möhkəm maddi-texniki baza olmadan təhsildə uğur qazanmaq mümkün deyildir. Məhz bu amil nəzərə alınaraq son 15 ildə ölkəmizdə 4 minə yaxın yeni məktəb binası tikilib və əsaslı təmir olunub. Məktəblər müasir təhsilə cavab verən avadanlıq və texnologiyalarla təmin edilib.

Azərbaycan Respublikasının Birinci vitse prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da məktəblərimizin maddi-texniki bazasının möhkəmlənməsində əvəzsiz rol oynayır.

Bu gün on minlərlə Azərbaycan məktəblisi, xüsusən, ucqar kənd yerlərində yaşayan uşaqlar beynəlxalq standartlara uyğun tikilmiş, qışda qızdırlan istilik sistemləri və komputerlər də daxil olmaqla bütün zəruri avadanlıqlarla təmin edilən yeni məktəblərdə parta arxasında əyləşmək imkanına görə Heydər Əliyev Fonduna və onun prezidentinə minnətdardılar. Mehriban xanım Əliyevanın müəllifi olduğu "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin uğurlu icrası nəticəsində Heydər Əliyev Fondu Azərbaycanda təhsilin inkişafında inqilabi dəyişikliklərə imza atıb. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində bölgələrdə 400-dən artıq məktəb binası inşa olunmuş və yenidən qurulmuşdur.

Heydər Əliyev Fondu tərəfindən "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" çərçivəsində respublika üzrə onlarla uşaq müəssisəsi əsaslı şəkildə təmir olunmuş, yeni avadanlıqlarla təchiz edilmiş, əlavə yardımçı binalar tikilmiş və kommunal şəraiti yaxşılaşdırılmışdır. Hər il "Təhsilə dəstək" layihəsinə uyğun olaraq Heydər Əliyev Fondu Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir.

Təhsil prosesində müəllim əsas simadır. Məktəbin yaxşı maddi-texniki bazasına yüksək müəllim peşəkarlığı əlavə olunduqda təhsildə nailiyyət əldə etmək mümkündür. Bu amili nəzərə alan ölkə rəhbərliyi respublikamızda müəllimlərə göstərilən diqqət və qayğını ildən-ilə artırır. Ölkəmizdə davamlı olaraq aparılan məktəb tikintiləri, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi nəticəsində əməkhaqqı artımı, müəllimlərin işə qəbulunun şəffaf təşkili bu peşənin nüfuzunu artırmaqla yanaşı, həm də müəllim olmaq missiyasının yeni üfüqlərini müəyyən edir.

Bütün bunlar son illər təhsil sahəsində qazanılan uğurların təməlində Azərbaycanın yeni təhsil modelinin dayandığını təsdiqləyir. Artıq Azərbaycanda yeni təhsil konsepsiyası formalaşıb və uğurla həyata keçirilir.

Milli dəyərlər üzərində qurulan təhsil sistemi gənclərin nümunəvi vətəndaş kimi formalaşmasını qarşıya əsas məqsəd kimi qoyub və buna müvəffəq olub.

**Qüdrət SƏMƏDOV, "Qəbələ"**